Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2022, **s. 72-78**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2022, **с. 72-78**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2022, **pp. 72-78**

UOT 78.02

Kamran Kərimov
Əməkdar artist, müəllim
Azərbaycan Milli Konservatoriyası
AZ 1073, Bakı ş., Ələsgər Ələkbərov 7

TOFİQ BAKIXANOVUN YARADICILIQ İRSİ

Açar sözlər: *Tofiq Bakıxanov, bəstəkar, musiqi, muğam, janr*

Azərbaycan bəstəkarlıq məktəbinin layiqli nümayəndəsi Tofiq Bakıxanov musiqi mədəniyyətimizin inkişafında və təbliğ edilməsində əhəmiyyətli rol oynamışdır. Tədqiqatın əsas məqsədi T.Bakıxanovun çoxsahəli yaradıcılığını müxtəlif aspektlərdən araşdırmaqdan ibarətdir. Məqalədə bəstəkarın yaradıcılığı milli musiqi kontekstində təhlil olunur.

Кямран Каримов

ТВОРЧЕСКОЕ НАСЛЕДИЕ ТОФИКА БАКИХАНОВА

Ключевые слова: *Тофик Бакиханов, композитор, музыка, мугам, жанр*

Тофик Бакиханов, достойный представитель азербайджанской композиторской школы, сыграл важную роль в развитии и популяризации нашей музыкальной культуры. Основная цель исследования – изучить многогранную деятельность Т.Бакиханова с разных сторон. В статье анализируется творчество композитора в контексте национальной музыки.

Kamran Karimov

TOFIG BAKIKHANOV'S CREATIVE HERITAGE

Keywords: *Tofig Bakikhanov, composer, music, mugam, genre*

A worthy representative of the Azerbaijani school of composition Tofig Bakikhanov played an important role in the development and promotion of our musical culture. The main purpose of the research is to study the multifaceted work of T. Bakikhanov from various aspects. The article analyzes the composer's work in the context of national music.

XX əsrdə əsası qoyulan Azərbaycan bəstəkarlıq məktəbi yarandığı dövrdən bu günə kimi bütün Şərqdə və eləcə də dünyada tanınan bəstəkarları və misilsiz əsərləri ilə özünə əbədiyaşarlıq qazanmışdı. Dahi Ü.Hacıbəylidən başlayan bu şərəfli yolun yolçusu olan M.Maqomayev, A.Zeynallı, Q.Qarayev, F.Əmirov, Niyazi, C.Hacıyev, S.Hacıbəyov, C.Cahangirov, S.Ələsgərov, A.Əlizadə, V.Adıgözəlov və başqalarının yaradıcılığını tədqiq etdikdə çoxşaxəli, maraqlı bəzən unikal nüanslarla zəngin olduğunu görürük. Azərbaycan bəstəkar yaradıcılığı haqlı olaraq digər Şərq xalqlarının musiqi mədəniyyətilə müqayisə olunarkən öz fəqliliyi ilə öyünə bilir. Buna səbəb dünya musiqisinin bir çox janrlarında Şərq üslubunda ilk əsər yaratmaq, birinci olmaq haqqını qazana bilmələridir. Əgər biz müsəlman-türk dünyasında ilk opera, balet, musiqili komediya müəlliflərinin kimliyini soruşsaq bir səslə hər kəs bunun azırbaycanlı bəstəkarlar olduğunu təsdiq etməli olacaq. Eyni zamanda Şərqin ilk qadın bəstəkarları da Azərbaycanda Ü.Hacıbəyli məktəbinin layiqli yetirmələri olmuşdur. Ş.Axundova Şərqdə opera yazan ilk qadın bəstəkardır.

XX əsrin ortalarından Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələri yeni janr – simfonik muğam janrında əsərlər yazmağa başladılar. Ümumiyyətlə, Azərbaycan bəstəkarları öz yaradıcılığında əsas istiqamət kimi xalq musiqimiz, muğamlarımızdan yararlanmağa üstünlük verir, Şərq musiqisinin lad-məqam xüsusiyyətlərinə istinad edərək milli mədəniyyətimizin musiqi xəzinəsinə dəyərsiz incilər bəxş etmişlər. Musiqi tariximizdə özünə layiqli yer tutan bəstəkarlardan biri də Tofiq Bakıxanov olmuşdur.

Azərbaycan Respublikasının xalq artisti, əməkdar incəsənət xadimi, Bəstəkarlar İttifaqının üzvü, prezident təqaüdçüsü, BMA-nın kamera-ansambl kafedrasının professoru, sənətşünaslıq doktoru, şöhrət ordenli, "Humay" mükafatı, ilk dəfə "Abbasqulu Ağa Bakıxanov" adına mükafatı laureatı Tofiq Bakıxanov 8 dekabr 1930-cu ildə Bakı şəhərində məşhur sənətkar - respublikanın xalq artisti, tarzən Əhməd Bakıxanovun ailəsində anadan olmuşdur. Onun ulu babası olan Abbasqulu Ağa Bakıxanov Azərbaycanın tanınmış, ensiklopedik biliyə malik olan alimlərindən, dövlət xadimlərindən biri olmuşdur.

Azərbaycan xalq musiqisini dərindən bilən və yorulmadan onu təbliğ edən Əhməd Bakıxanovun topladığı "Xalq rəngləri" məcmuəsi də Ü.Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları" əsərinin praktiki məşğələləri üçün böyük əhəmiyyətə malik əyani vasitin yaradılmasında böyük rolu var. Ə.Bakıxanovun misilsiz xidmətlərindən biri də Azərbaycanda xalq çalğı alətləri ansamblının yaradılması xalq musiqisinin öyrənilməsi sahəsində böyük rol oynaması idi. Belə ki, 1931-ci ildə Radio Komitəsinin nəzdində M.Maqomayevin təşəbbüsü ilə ilk dəfə yaradılan xalq çalğı alətləri ansamblının da rəhbəri Ə.Bakıxanov olmuşdur. Kiçik yaşlarından musiqi ilə birbaşa təmasda olaraq

böyüyən T.Bakıxanov yaradıcılığının birinci dövründə skripkaçı – ifaçı kimi, ikinci dövründə isə bəstəkar kimi fəaliyyət göstərmişdir.

Onun həyatında ustadların rol oynaması faktı danılmazdır. Məhz Azərbaycan klassik musiqisinin banisi Ü.Hacıbəylinin təşəbbüsü ilə T.Bakıxanov on illik musiqi məktəbinə (indiki Bülbül adına orta ixtisas Musiqi Məktəbinə) skripka ixtisası üzrə Tsimbirovun sinfinə daxil olur. O, daima dövlət səviyyəli tədbirlədə, bayram konsertlərində çıxış edərdi. Onun ifaçılıq xüsusiyyətləri ayrıca bir araşdırma mövzusudur. T.Bakıxanov Niyazinin rəhbərliyi ilə simfonik orkestrin müşayiəti ilə Mendelsonun skripka və orkestr üçün konsertini də T.Bakıxanov məharətlə ifa etdi. 1948-ci ildə Azərbaycanın görkəmli sənətkarı Ü.Hacıbəylinin vəfatından sonra T.Bakıxanov "Üzeyir Hacıbəyli" adına təqaüdə layiq görüldü .

T.Bakıxanov 1953-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq şöbəsinə Azərbaycan klassik musiqisinin təkamül prosesində misilsiz xidmətləri olan görkəmli bəstəkar Q.Qarayevin sinfinə daxil olur və 1957-ci ildə bu sinfi bitirir. T.Bakıxanov Azərbaycan musiqisinin inkişafında təkcə bəstəkar deyil, eyni zamanda ifaçı kimi yaxından iştirak etmişdir. O, hələ 1975-ci ildə Ü.Hacıbəylinin anadan olmasının 60 illiyi münasibəti ilə keçirilən konsertdə dirijor L.Ginzburqun rəhbərliyi altında simfonik orkestrin müşayiəti ilə "Arşın mal-alan" musiqili komediyasının mövzuları əsasında fantaziyanı, 1947-ci ildə Nizaminin 800 illik yubileyində Vyetanın IV konsertini ifa etmişdir.

XX əsrin 50-ci illərindən o, skripkaçı kimi Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki trioda fəaliyyət göstərir. Bir çox Azərbaycan bəstəkarlarının əsərlərinin ilk ifaçısı olur. Bu əsərlərə F.Əmirovun skripka, fortepiano və simfonik orkestr üçün 2-li konserti, S.Ələsgərovun "Xatirə", "Romans" triolarının, skripka və fortepiano üçün sonatasının ilk ifası T.Bakıxanovun sənət uğurlarındandır. Bəstəkar opera janrından başqa bütün musiqi janrlarına müraciət edib. T.Bakıxanov 3 balet, 3 operetta, 8 simfoniya, 5 simfonik muğam, 6 simfonik poema, simfonik süita və uvertüralar, 26 kamera-instrumental əsərlərin (sonatalar, trio, kvartet, kvintet), Azərbaycan şairlərinin sözlərinə yazılmış 100 mahnı və romansların müəllifidir. T.Bakıxanovun yaradıcılığı çoxşaxəli və məhsuldardır. O operadan başqa musiqinin digər bütün janrlarında öz qələmini sınamışdır. Nəticədə maraqlı, çox sanballı əsərlər yaratmış, Azərbaycan milli musiqisinə öz töhfəsini vermişdir. Bəstəkar skripka, viola, violonçel, fleyta və fortepiano üçün 30-dan artıq sonatanın, trio, kvartet, kvintet və müxtəlif alətlər üzrə simfonik orkestr üçün 25 konsertin, həmçinin ilk dəfə olaraq, məhz viola, violonçel, fleyta və qoboy üçün kvartetlərin müəllifidir.

Onun yaradıcılığında özünəməxsus yer tutan əsərlərə diqqət yetirsək görərik ki, o həm kiçik, həm də irihəcmnli əsərlər yaratmışdır. T.Bakıxanovun bəstələdiyi kiçik həcmli əsərlərə, sonatalar, skripka üçün yazdığı etüdlər, eyni zamanda Azərbaycan xalq mahnılarının skrikpka üçün işləmələri, instrumental

əsərlər, estrada mahnıları aiddir. İri həcmli əsərlərin siyahısana bəstəkarın bəstələdiyi simfoniyalar, baletlər, simfonik muğmlar, operettalar daxildir.

T.Bakıxanovun ən çox sevdiyi alət – skripka üçün yazdığı əsərləri böyük maraq kəsb edir. O bütün yaradıcılıq boyu mütəmadi olaraq bu alət üçün kiçik həcmli pyeslərdən tutmuş konsertə kimi bütün janrlarda əsərlər, o cümlədən 20 sonata və sonatina bəstələmişdir. Skripka sonatalarından II "Romantik" sonata, X "Cazsayağı" sonata adlanır. Onun II və III sontaları violençel və fortepiano üçün nəzərdə tutulub.

İkinci sonata yüksək professionalizmi ilə fərqlənir. Sonata üç hissəlidir. Birinci hissədə milli elementlər güclüdür, aşıq intonasiyalarının təsiri aydın duyulur. Lirik, köməkçi mövzu "Qalanın dibində" xalq mahnılarının melodiyası üstündə qurulub. Bu mövzu vaxtilə dahi rus bəstəkarı M.İ.Qlinkanın da diqqətini cəlb etmişdir. Məlum olduğu kimi Qlinka özünün "Ruslan və Lyudmila" operasında məşhur İran xorunu "Qalanın dibində" mahnısı əsasında yazmışdır. Sonatanın ikinci hissəsi violençelin səmimi mahnısı kimi dinlənilir. Sinkoplu ritmə əsaslanan kiçik girişdən sonra əsas mövzu səslənir. Bura daxili həyəcan güclü verilib. Mürəkkəb formada yazılan ikinci hissəsinin orta bölməsi işlənməsinə, inkişaf xarakterinə, qeyri-sabit tonallığına görə seçilir. Üçüncü hissə daha millidir, xalq şənliyinin ifadəsi təsiri bağışlayır. Bu sonata özünün obrazlılığı, əsas mövzunun parlaqlığı ilə fərqlənir, həm də asanlıqla mənimsənilir. əsər "Zaqafqaziya baharı" musiqi festivalında ifa olunub, yüksək qiymətləndirilib.

Bəstəkar yaradıcılığı boyu skripka və fortepiano üçün müxtəlif əsərlər – irihəcmli silsilələrdən kiçik pyeslərədək yazmışdır. Bəstəkarın kamera-instrumental musiqisinin bu sahəsinə olan diqqəti ilk növbədə onun skripkaçı olması ilə izah oluna bilər. Bəstəkarın "kamera əsərləri elə bədii nailiyyətlərə malikdir ki, onlar bu əsərlərin ifaçılıq praktikasında kifayət qədər yer tutmasını təmin edir. Bu əsərlər bütövlükdə kamera musiqisinə xas olan nəzəri və estetik problemləri qarşıya qoyur və çox vaxt uğurla həll edir" [7, s.15].

Məlumdur ki, musiqiçi Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını 1953-cü ildə professor A.Amitonun skripka sinfi üzrə bitirmişdir və beləliklə, T.Bakıxanovun bu alətə nümayiş etdirdiyi münasibətini yalnız bəstəkarlıqla yox, eyni zamanda ifaçılıqla da sıx bağlıdır. Çox əlamətdardır ki, klassik instrumental musiqinin əsas janrlarından biri olan sonata Azərbaycan bəstəkarlarının yaradıcılığında böyük yer tutur və təsdiqi kimi T.Bakıxanovun skripka və fortepiano üçün on sonatası gözəl nümunələrdəndir.

Bəstəkarın bu sahədə yaratdığı ilk əsəri hələ 1954-cü ildə tələbə ikən skripka və fortepiano üçün yazılan Sonatinasıdır. Əsər üç hissədən ibarət olan ənənəvi silsilə şəklində təqdim olunur. Onun əksər hissələri cəld templi, orta hissəsi isə ağır templidir. Sonatinaya xas olan məzmun və forma vəhdəti, bəzi milli musiqi cizgiləri bəstəkarın yaradıcılıq axtarışlarının hansı istiqamətdə

yönəlməsindən xəbər verir və demək olar ki, T.Bakıxanov hələ tələbə olarkən klassik və Azərbaycan musiqi ənənələrinin sintezinə nail olmağa çalışırdı. Bu özünü onun sonatalarında, skripka və fortepiano üçün yazdığı 12 Azərbaycan xalq mahnısının işlənilməsində, instrumental konsert yardıcılığında göstərir. Onun "kamera əsərlərinin öyrənilməsi bütövlükdə Bakıxanov üslubunun inkişafını səciyyələndirən nəticələr çıxarmağa imkan verir" [7, s.25].

T.Bakıxanov yaradıcılığında mahnı və romansların da özünəməxsus rolu var. Onun estrada üçün yazılmış mahnılarını şərti olaraq üç qrupa bölmək olar: səmimi məhəbbət mövzusunu və yaxud təbiətin gözəlliyini vəsf edən manılar; melodiyanın "açıq" (məişətdə istifadə olunan) intonasiyalardan qurulması; mahnıların gənc nəsilərə ünvanlanması ilə əlaqədar solo-ifaçılar üçün nəzərdə tutulması. Onun mahnılarından söhbət açarkən qeyd edək ki, bəstəkar klassik şairlərlə yanaşı, dövrün tanınmış şairlərinin şeirlərinə müraciət etmişdir. Hələ 1967-ci ildə nəşr olunan "Gözəlliklər məskəni" adlı nəğmələr məcmuəsində o, Abbasqulu Ağa Bakıxanovun poeziyasına müraciət etmiş, onun lirik şeirlərinə romanslar yazmışdır. Məlumdur ki, A.Bakıxanov təkcə alim, tarixçi, şair deyil, eyni zamanda öz fəlsəfi dünyagörüşü ilə də məşhurlaşmışdır. 1978-ci ildə T.Bakıxanovun fortepiano ilə oxumaq üçün "Qüdsidən söz düşəndə" adlı romanslar məcmuəsi çap olunur. Buna görə də bu əsərləri dinləyəndə insan sanki mənəvi cəhətdən saflaşır, yeni bir ilahi aləmə doğru gedir. Məcmuədəki romanslar insanın lirik-psixoloji emosional vəziyyətinə təsir edir. "Gözəlliklər məskəni" nəğmələr məcmuəsində "Söz düşəndə", "Yenə bülbüllər", "Toxunmayaq güllərə", "Qəlbimi işıqlandıran", "Nazlı Nigar", "Gözləyər", "Söylə", "Bəxtəvər" adlı romanslar daxildir. Bəstəkar sanki bu romansların mətnlərini bir-birinə uyğun seçib ardıcıllıqla düzmüşdür. Dinləyici məcmuəyə qulaq asdıqda lirik poema dinləmiş olur.

Bundan başqa bəstəkar T.Mütəllibovun sözlərinə "Abşeron bağlarında", "Özbək bacım", "Yaylaqların mahnısı", "Görüş yerimiz", A.Zeynallının sözlərinə "Sevgilim", "Sevən könül", İ.Səfərlinin sözlərinə "Cəfərim mənim", Mikayıl Müşfiqin sözlərinə "Nigar", A.Puşkinin sözlərinə "Qış yolu" mahnı-romanslarını yaratmışdır.

Bu mahnılar arasında 60-cı illərin əvvəllərində şair S.Rüstəmin sözlərinə bəstələdiyi "Sevən könül" mahnısı olduqca şən, dinamik, gözəldir. "Abşeron bağlarında" və "Özbək bacım" mahnısı 6/8 ölçüsündə, rəqs ritminin xüsusiyyətlərini özündə cəmləşdirir. 7 hecalı poetik strukturdan ibarətdir. Adından göründüyü kimi "Abşeron bağları"nda əsəri Vətənə, onun təbiətinə olan sevgidən bəhs edir. "Cəfərim mənim" mahnısı böyük dramaturqumuz Cəfər Cabbarlıya həsr olunub. "Nigar" mahnısının melodiyası sadə ifadəli və yadda qalan intonasiyadan qurulur. "Qış yolu" əsəri mahnı-romans musiqi formasında bəstələnib.

T.Bakıxanov 5 simfonik muğam müəllifidir. "Nəva", "Humayun", "Şahnaz", "Rahab", və " Dügah" simfonik muğamlarını yazmışdır. Bəstəkarın

son dövrdə 5 saylı "Nigar" simfoniyası həyatdan vaxtsız getmiş qızına həsr olunmuşdur. Simfoniyada öz əksini tapmış bəstəkarın həyatının gərgin anları, həyəcanları dolğunluqla ifadə olunmuşdur. VI simfoniyası isə "Türk" simfoniyasıdır. T.Bakıxanov yaradıcılığı türk musiqi aləminə çox tanışdı. Onun əsərləri Kiprdə keçirilən Beynəlxalq musiqi festivallarının proqaramına daxil edilmiş, İstanbulda İzmirdə onun müəllif konsertləri keçirilmişdir. O, Türkiyədə ezamiyyətdə olduğu vaxtlar skripka ilə simfonik orkestr üçün "Türk" rapsodiyasını, skripka üçün 5 saylı "Türk" sonatasını, kamera orkestri üçün "Kuzey-Kıprıs fasilleri" (Şimali Kipr lövhələri), "Kuzey-Kıbrıs" süitasını, böyük simfonik orkestr üçün "Türk" simfoniyasını bəstələmişdir.

Yaradıcılğında instrumental musiqiyə müraciət edərək müxtəlif alətlər üçün rəngarəng əsərlər yaratmışdır. Belə ki, 1951-ci ildə violonçel və fortepiano üçün "Sözsüz mahnı", fortepiano üçün variasiyalar, 1953-cü ildə fleyta və fortepiano üçün "Səhər nəğməsi", fortepiano üçün variasiyalar, violonçel və fortepiano üçün "Elegiya", 1954-cü ildə 15 Azərbaycan xalq mahnılarının skripka və fortepiano işlənməsi, skripka və fortepiano üçün "Andante", qoboy və fortepiano üçün "Melodiya", fortepiano üçün 5 prelüdi, 1955-ci ildə skripka və fortepiano üçün 17 melodiyanın işlənməsi və s. kimi instrumental əsərləri milli klassik musiqi xəzinəsinə daxildir.

Bəstəkarın yaradıcılığında xüsusi yer tutan janrlardan biri də baletdir. "Xəzər balladası" "Şərq poeması", Nizaminin 850 illiyi ilə əlaqədar yazılmış "Xeyir və Şər" baletlərini yazır.

Beləliklə T.Bakıxanovun yaradıcılığına nəzər yetirərkən belə nəticəyə gəlmək olur ki, müəllif ifaçıların texniki və yaradıcı imkanlarının aşkarlanması üçün lazımi priyomlardan istifadə edir, Üzeyir Hacıbəyov ənənələrini davam etdirərək milli musiqimizin əsasları üzərində yeni professional mahnılar yaradır, xalq mahnılarını instrumental musiqiyə tətbiq etməklə milli folklor sənətinin tədricən yaddan çıxıb unudulmasının qarşısını alır və gələcək nəsillərin də belə düzgün yaradıcılıq istiqaməti ilə inkişaf etdirilməsi işində önəmli rol oynayır.

ƏDƏBİYYAT

1. Babayev E. İlk təəssürat. T.Bakıxanovun Şərq sonataları "Mədəniyyət" qəzeti 13 avqust 1992
2. Əliyev N. T.Bakıxanovun portretindən cizgilər B., 2003, 495 s.
3. Əliyeva H. Tofiq Bakıxanovun kamera instrumental əsərlərində ifaçılıq xüsusuiyyətlıəri B.: 2004 186 s.
4. Həsənova C. Tofiq Bakıxanov 70. "Musiqi dünyası" jurnalı. 1-2/7, 2001, s.79
5. İsmayılov M. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B.: Elm, 1991, 120 s.

6. İsmayılov M.Azərbaycan xalq musiqinin janrları. B., İşıq, 1984, 100 s.
7. Qafarova Z. Bəstəkarlarımızın portreti. Tofiq Bakıxanov. B.: Azərnəşr, 1992, 32 s.
8. Qafarova Z. T.Bakıxanovun Simfonik muğam dünyası. B.: Mütərcim, 2014, 105 s.
9. Məlikov A. Musiqi ilə yaranan dostluq "Azərbaycan gəncləri" qəzeti, 20 yanvar 1980

Məqalənin redaksiyaya daxil olma tarixi: 17.01.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.01.2022
Məqaləni çapa qəbul olunma tarixi: 15.02.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.